# Diplomatlar üçün "Xarici Siyasət Proqramı" başa çatıb

**İyunun 5-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilən Gənc Diplomatlar üçün "Xarici Siyasət Proqramı"nın məzun günü keçirilib.**










AZƏRTAC xəbər verir ki, məzun günündə xarici işlər naziri Ceyhun Bayramov, ADA Universitetinin rektoru səfir Hafiz Paşayev, XİN-in struktur bölmə rəhbərləri və gənc diplomatlar iştirak ediblər.

Tədbirdə salamlama nitqi ilə çıxış edən ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə 8 ay müddətində baş tutan "Xarici Siyasət Proqramı"nın yekunlaşması münasibətilə proqram iştirakçılarını təbrik edib, onlara diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

ADA Universitetinin prorektorunun müşaviri, İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva və Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi Raman Məmmədov çıxışlarında 2022-ci il oktyabrın 10-dan 2023-cü il mayın 20-dək həyata keçirilən "Xarici Siyasət Proqramı"nın məzmunu, müxtəlif sahələr üzrə təşkil olunmuş təlimlər və səfərlər haqqında ətraflı məlumat veriblər. Proqramın məzmununun bundan sonra da təkmilləşdirilməsi istiqamətində addımların davam etdiriləcəyi diqqətə çatdırılıb.

Sonra "Xarici Siyasət Proqramı"nın hesabat videoçarxı nümayiş etdirilib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çoxmərhələli imtahan prosesi nəticəsində diplomatik xidmətə qəbul olunmuş gənc diplomatları "Xarici Siyasət Proqramı"nın məzunu olmaları münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Hazırkı dövrdə transformasiyaya uğrayan beynəlxalq münasibətlər sistemində ölkəmizin milli maraqlarına əsaslanan Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursunun irəlilədilməsində diplomatların üzərinə mühüm vəzifələrin düşdüyü qeyd olunub. Nazir Ceyhun Bayramov bu istiqamətdə çağırışların öhdəsindən gəlmək üçün diplomatların bilik və bacarıqlarının artırılmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən və öz diplomatik təcrübəsini iştirakçılarla bölüşən ADA Universitetinin rektoru professor Hafiz Paşayev gənc diplomatlara fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra gənc diplomatlar "Xarici Siyasət Proqramı" haqqında fikir və təəssüratlarını bölüşüb, təşkilatçılara təşəkkürlərini bildiriblər.

Sonda gənc diplomatlara sertifikatlar təqdim olunub.

Azərbaycan. - 2023.- 6 iyun.- S.4.